yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur







2 DOQQUZ İLİN SUSUZLUĞU

3 YENİ DİPLOMATİK BÖHRAN

4 İSLAMDA DEİZMƏ YER YOXDUR

6 CƏNUBİ QAFQAZDAKI ETNİK MÜNAQİŞƏLƏRİN REGION ÜÇÜN YARATDIĞI PROBLEMLƏR


HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 İYUL 2018-Cİ İL

№011 (70)

## ÇAVUŞOĞLU: "TÜRKİYƏ İRANA QARŞI SANKSİYALARA QOŞULMAYACAQ"



"Türkiyə ABŞ-ın İrana qarşı sanksiyalarına qoşulmayacaq". Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

"Amerikadan heyət gəlmişdi. Biz onlara dedik ki, bu sanksiyaların tətbiqində iştirak etməyəcəyik. Biz rahat şərtlərlə neft alırıq. Sizin dediyinizi etməyəcəyik", - deyə M. Çavuşoğlu bildirib.

Qeyd edək ki, ABŞ dövlət katibi Mayk Pompeo deyib ki, İranın neft sektoruna qarşı ABŞ sanksiyaları noyabrın 4-dən etibarən tətbiq olunmağa başlayacaq. Həmin tarixdən sonra İrandan neft tədarükü sanksiyaların pozulması kimi hesab olunacaq. ABŞ Dövlət Departamentindən bildirilib ki, Vaşinqton öz müttəfiqlərini noyabrın əvvəlinə qədər İrandan neft alınmasını tamamilə dayandırmaq üçün razı salmağa çalışacaq.

## BAŞ NAZİR MAMUKA BAXTADZENİN MÜAVİNLƏRİ VƏ MÜŞAVİRLƏRİ TƏYİN OLUNUB



Gürcüstanın daxili işlər naziri Giorgi Qaxariya və regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili baş nazir Mamuka Baxtadzenin müavinləri təyin olunublar.

İki müavinlə yanaşı baş nazir Mamuka Baxtadzenin iki müşaviri də olacaq. Baş nazirin təhsil məsələləri üzrə müşaviri keçmiş təhsil və elm naziri Mixeil Çxenkeli, regional inkişaf üzrə müşaviri isə qaçqınların işi və yerləşdirilməsi üzrə keçmiş nazir Sozar Subari təyin olunub.

## FÖVQƏLADƏ HALLARIN İDARƏ OLUNMASI ÜZRƏ XİDMƏTİN RƏHBƏRİ İSTEFA VERİB



Fövqəladə halların İdarə olunması üzrə Xidmətin rəhbəri Giorgi Mğebrişvili istefa verib. G. Mğebrişvili istefa xahişi ilə baş nazir Mamuka Baxtadzeyə müraciət edib. M. Baxtadze onun müraciətini təmin edib.

Qeyd edək ki, Giorgi Mğebrişvili ötən ilin noyabrından Fövqəladə halların İdarə olunması üzrə Xidmətin rəhbəri idi. 2015-ci ilin avqust ayından 2017-ci ilin noyabrına qədər isə o, Gürcüstanın daxili işlər naziri olub.

## BİDZİNA İVANİŞVİLİ "GÜRCÜ ARZUSU" PARTİYASININ PREZİDENTLİYƏ MÜMKÜN NAMİZƏDLƏRİNİN ADLARINI AÇIQLAYIB



Gürcüstanın hakim "Gürcü Arzusu" partiyasının sədri Bidzina İvanişvili partiyanın prezidentliyə mümkün namizədlərinin adlarını açıqlayıb.

Bidzina İvanişvili Gürcüstanın İctimai Televiziyasına müsahibəsi zamanı "Gürcü Arzusu" partiyasının prezident vəzifəsinə çoxlu layiqli namizədlərinin olduğunu deyib.

"Zurab Abaşidze, Sozar Subari, Sergeyenko, Tea Tsulukiani. Mənim də namizəd olacağımı deyirlər. Bizim seçkilərin ilk mərhələsində qalib gələ biləcək çoxlu layiqli namizədlərimiz var",- deyə B. İvanişvili bildirib.

Qeyd edək ki, Gürcüstanda prezident seçkiləri bu ilin oktyabrında keçiriləcək. "Gürcü Arzusu" partiyasından prezidentliyə namizədin adının avqust ayında açıqlanacağı bildirilib.

## İKİ SABİQ NAZİR İSTİNTAQA CƏLB OLUNUB



Gürcüstanın keçmiş iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili və keçmiş regional inkişaf və infrastruktur naziri Zurab Alavidze istintaqa cəlb olunub. Bu barədə Gürcüstanın Baş Prokurorluğundan bildirilib.

Məlumata əsasən, sabiq nazirlər vəzifələrindən sui-istifadə, böyük həcmdə dövlət vəsaitlərinin qanunsuz mənimsənilməsi faktı ilə bağlı Baş Prokurorluqda sorğu-sual olunub.

Qeyd edək ki, D. Kumsişvili 2015-ci ilin sentyabrından 2018-ci ilin iyununa qədər Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri olub. Z. Alavidze isə 2016-cı ilin noyabrından 2018-ci ilin martına qədər regional inkişaf və infrastruktur naziri vəzifəsində çalışıb.

## GÜRCÜSTANDA MATƏM ELAN OLUNUB



İyulun 16-sı kömür mədənində baş vermiş qəza ilə bağlı Gürcüstanda matəm elan olunaraq dövlət bayraqları endirilib. Bu barədə qərarı Gürcüstanın baş naziri Mamuka Baxtadze imzalayıb.

Qeyd edək ki, Mindeli kömür mədənində qəza nəticəsində 4 fəhlə ölüb, daha 4-ü isə xəsarət alıb.



## DOQQUZ İLİN SUSUZLUĞU

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**“Son zamanlar havaların isti keçməsi ilə əlaqədar istirahət etmək üçün Batuma, Kobuletə, ən azından isə Dmanisə, Zalqaya gedənlərin sayı çoxalıb. Kimi bir az imkan əldə edib başgicəlləndirən istinin əlindən dəniz kənarına, dağa qaçır, kimi də evi-eşiyi, təsərrüfatı sahibsiz qoyub heç yana gedə bilmir, ildən-ilə daha da istiləşən yayı bir təhər dözərək öz şəhərində, öz kəndində keçirməli olur. Kəndlərdə günəşin öldürücü istisinə baxmayaraq, əkin-biçin, bağ-bostan sahələrində mübariz əhali qışa bir az azuqə yığmaq üçün işini davam etdirərək istirahətə vaxt tapa bilmir. İşi-gücü olmayanlar da çayxanalarda papaqlarını günə yandıraraq yayın istisindən ağızdolusu şikayətlənə-şikayətlənə payızı, qışı arzulayaraq günlərini keçirirlər.**

Qardabani sakinləri arasında da dincəlmək üçün istirahət yerlərinə gedənlərin sayı çoxdur, bununla yanaşı getməyənlərin, bütün yayı öz isti şəhərlərində keçirənlərin də sayı az deyil. Dincəlməyə gedənlərə xoş istirahət arzulayaraq keçirik heç bir yana istirahətə gedə bilməyib Qardabanidə qalanların məsələsinə.

Qardabanidə günəşin zərərli şüalarından gizlənmək üçün park mövcuddur. Əhalinin çox hissəsi rayon icra hakimiyyətinin binasının sağ tərəfində yerləşən (indi həmin binada sakrebulo yerləşir) bu parkda istirahət edir. Qardabani sakinlərinin istirahət saatı əsasən axşam, gün batanda başlayır. Çünki səhər saatlarında istidən parkda da durmaq mümkün deyil. Camaat öz evində-eşiyində birtəhər günəşdən gizlənə bilir. Parkın əhalinin sıx məskunlaşdığı yerdən uzaq olması ilə əlaqədar çox adam buraya gedə bilməyərək, xəstəxanaya (köhnə xəstəxana nəzərdə tutulur) yaxın olan fəvvarənin ətrafında toplaşır.

Fəvvarə çoxdandır ki, fəaliyyət göstərmir. Susuzluqdan boyası quruyub tökülən fəvvarənin imkanı olsaydı, ortasında quraşdırılmış tar və çonquru sinəsinə basıb dərdini ətrafına sərinləşmək üçün toplaşan, ancaq sərinləşmək əvəzinə quru fəvvarəni görüb hirsindən daha da istiləşən Qardabani sakinlərinə deyərdi. Hay çəkərək onun heç bir günahı olmadığını, ona deyilən təhqiramiz söyüşlərin ünvanının başqa olduğunu ağlaya-ağlaya hayqırardı. Halbuki ağlaya da bilməz, çünki gözlərinin yaşı çoxdan quruyub.

Xəstəxananın (köhnə xəstəxananın) qarşısında son günlərini yaşayan bu suyu qurumuş fəvvarənin dərdinə nə həkimlər, nə tez-tez yanından keçib gedən təcili yardım xidmətinin maşınları, nə hər iki tərəfində yerləşən bazar və mağazalar, nə də hər axşam ətrafına sərinləşmək ümidi ilə toplaşan Qardabani sakinləri dərman tapa bilməyəcəklər. Bu dərdə bir çarə var, o da fəvvarəyə suyu doldurub, işə salmaq.

Vaxt var idi fəvvarə su fışqırırdı, sonra suyu qurudu, sonra ətrafındakı həmişəyaşıl ağaclar qurudu, indi də oturacaqların boyası tökülüb, bir azdan da ondan heç bir əsər-ələmət qalmayacaq və gözümüzü açıb görəcəyik ki, bu fəvvarənin yerində də bazar var. Bəs görəsən bu fəvvarəni niyə tikirdilər?

Bax, Qardabani sakinlərinin istirahəti bu cür keçir. Gözləyək, hələ istilərin qurtarmasına çox qalıb, bəlkə fəvvarəmiz su fışqırdı...”

**Yuxarıda oxuduğunuz bu yazını düz 9 il bundan əvvəl yazmışam. Yazını olduğu kimi, hərf belə dəyişmədən verirəm. Mötərizələrin içindəki sözlərdən başqa əlavə filan da olmayıb. Baxın, hörmətli oxucu, görün nə dəyişib? Heç nə. Əksinə vəziyyət daha da pisləşib. İndi susuz fəvvarənin ətrafı da bərbad vəziyyətə düşüb. Asfalt örtüyündə yüz ilin xəndəklərinə bənzər oyuqlar əmələ gəlib. Fəvvarənin ətrafı olub qarpız, yemiş, xiyar, kartof, toyuq bazarı, avto parkinq. Bazar dağılandan sonra ətrafa tökülən zir-zibilin üfunətindən oradan keçmək olmur. Hələ taksi sürücülərinin fəvvarənin qarşısında düzülüb yolu kəsməsi, cır səsli müğənnilərin oxuduğu musiqinin və siqnalların səsi, sahibsiz itlərin fəvvarəyə yaxın üfunətli zibil yeşiklərinin ətrafında eşələnməsi, gəlib-gedənə hürməsi vəziyyəti daha da ürəkbulandıran edir. Yəni bu 9 il ərzində susuz fəvvarənin lal fəryadı ətrafını daha da bərbad edib, inkişaf yuxarıdan, daha doğrusu aşağı şkaladan dibə doğru baş verib. Bu basabasda təcili yardım xidmətinin maşınları hələ də ilişə-ilişə süyüşüb çıxırlar. Hələ mən bayram ərəfələrində fəvvarənin ətrafının hansı durumda olduğundan danışmıram. Yaxşı, bayramı başa düşdük, bir neçə gün dözmək olar. Amma yuxarıda dediklərim hər gün baş verir, özü də düz 9 ildir. Qardabanidə hamının “fantanın yanı” kimi tanıdığı, görüşmək üçün bir-birinə işarə verdiyi bu yer həm də tin, dalan, şəhərin çıxışı deyil axı. “Fantanın yanı” Qardabaninin düz köbəyidir, mərkəzidir. Deyirlər yüzə dözən yüz birə də dözər. Bir il də gözləyək, bəlkə 10-cu il fəvvarəmiz su fışqıra.**

## GÜRCÜSTANDA NATO-NUN ÇOXMİLLƏTLİ HƏRBİ TƏLİMLƏRİ KEÇİRİLƏCƏK




Bu ilin 1-15 avqust tarixlərində Gürcüstanda NATO-nun “Etibarlı tərəfdaş - 2018” çoxmillətli hərbi təlimləri keçiriləcək.

Gürcüstanın Müdafiə Nazirliyinin məlumatına əsasən, hərbi təlimlərdə 13 ölkə iştirak edəcək. İştirakçı ölkələr Gürcüstan, ABŞ, Böyük Britaniya, Almaniya, Estoniya, Fransa, Litva, Polşa, Norveç, Türkiyə, Ukrayna, Azərbaycan və Ermənistandır.

Vaziani hərbi və Norio təlim bazasında keçiriləcək hərbi təlimlərə 3000 hərbçi, ABŞ hərbi aviasiyası və Almaniya hərbi texnikası da cəlb olunacaq.

Qeyd edək ki, “Etibarlı tərəfdaş” hərbi təlimləri Gürcüstanda 4-cü dəfədir ki, keçiriləcək. Builki təlimlər əvvəlkilərə nisbətən daha geniş miqyaslı olacaq. Hərbi təlimlərin keçirilməsində məqsəd Gürcüstan, ABŞ və tərəfdaş ölkələrin silahlı qüvvələrinin hazırlığının artırılması və qarşılıqlı əməkdaşlığın gücləndirilməsidir.

## DAVİD ZALKALİANİ: “GÜRCÜSTAN DÜNYADA ƏN TOLERANT ÖLKƏLƏRDƏN BİRİDİR”




“Gürcüstanın zəngin tolerantlıq tarixi var və ölkədə yüz illərdir müxtəlif dini konfessiya və etnik azlıqlar harmoniya şəklində yaşayırlar”. Bu barədə Gürcüstanın xarici işlər naziri David Zalkaliani Vaşinqtonda dini azadlıqlar mövzusunda keçirilmiş beynəlxalq konfransda çıxışı zamanı deyib. O bildirib ki, Gürcüstan dünyada ən tolerant cəmiyyəti olan ölkələrdən biri kimi möhkəmlənib.

“Ölkədə unikal fenomen mövcuddur – şiə və sünnilər bir məsciddə ibadət edirlər”, - deyə D. Zalkaliani vurğulayıb.

Nazir Gürcüstanın tolerantlıq və dialoqun inkişafı istiqamətində xüsusi addımlar atmasını diqqətə çatdırıb. “2014-cü ildən sonra 202 məscid müsəlman, 20 sinaqoq yəhudi, 2 kilsə isə yevangelist protestant icmasına qaytarılıb”, - D. Zalkaliani qeyd edib.

D. Zalkaliani Gürcüstanın işğal altında olan ərazilərində dini azadlıq sahəsində mövcud problemlərə də toxunub. XİN başçısı Abxaziya və Cənubi Osetiyada bir sıra gürcü kilsə və monastırlarının dağıdıldığını bildirib.

## REGİONAL İDARƏÇİLİK BAŞ NAZİRİN SƏRƏNCAMINA KEÇİR



Baş nazir Mamuka Baxtadzenin bəyanatına görə, regional idarəçilik istiqaməti İnfrastruktur Nazirliyindən ayrılaraq baş nazirin sərəncamına keçir. M. Baxtadze qeyd edib ki, hökumət administrasiyasında bu istiqamətə Sozar Subari rəhbərlik edəcək.

Nazirin dediyinə görə, regional idarə sistemi bugünümüzün çağırışlarına cavab verə bilmir. Bu struktur dəyişikliklərdən sonra regional idarə birbaşa baş nazirin sərəncamına keçəcək.

“Bildirmək istəyirəm ki, cənab Sozar Subari regional idarə sahəsinə rəhbərlik edəcək. Bu bir yenilikdir. Regional idarəçilik komponenti İnfrastruktur Nazirliyindən ayrılaraq Gürcüstan hökumət administrasiyasına keçəcək. Təcrübələr bu dəyişikliklərin labüdlüyünü göstərdi. Mən dəfələrlə bəyan etmişəm ki, regional idarəçilik sistemi bizim bölgələrdə, ümumiyyətlə bölgə idarəçiliyində olan çağırışlara cavab verə bilmir.

Bildiyiniz kimi, bizim təşəbbüslərin böyük hissəsi bölgələrdə həyat səviyyəsinin yaxşılaşdırılması üçün yeni layihələrin həyata keçirilməsinə yönəlib. Buradan irəli gələrək, qərara aldıq ki, bu xidmət birbaşa baş nazirin tabeçiliyində olsun və bizim cəmiyyətlə birbaşa və əks əlaqələrimiz daha səmərəli olsun. Əminəm ki, Sozar bu istiqamətdə mənə kömək edəcək”, - deyə M. Baxtadze bildirib.

## TÜRKİYƏ PARLAMENTİ ÖDƏNİŞLİ ƏSGƏRLİYƏ DAİR QANUN QƏBUL EDİB



Türkiyə Böyük Millət Məclisi (TBMM) ödənişli əsgərliklə bağlı qanun layihəsini qəbul edib. Türkiyə parlamentinin qəbul etdiyi qanuna əsasən, çağırışçılar 15 min Türkiyə lirəsi (hazırkı məzənnə ilə təxminən 3000 ABŞ dolları) ödəyib 21 gün xidmət etməklə məcburi hərbi qulluqlarını başa vuracaqlar. Bildirilir ki, 1 yanvar 1994-cü ildən bu tərəfə doğulan çağırışçılar bu xidmətdən istifadə edə biləcəklər.

Qeyd edək ki, qanun layihəsi hakim Ədalət və İnkişaf Partiyasının tərəfindən TBMM-nə təqdim olunub.

## FİLİPPİN PREZİDENTİ MÜSƏLMAN REGİONUNA MUXTARİYYƏT VERMƏK NİYYƏTİNDƏDİR



Filippin prezidenti Rodriqe Duterte bəyan edib ki, ölkənin cənubundakı müsəlman regionuna muxtariyyətin verilməsi barədə qanunu imzalamaq niyyətindədir. Qanun Mindanao adasında yaşayan müsəlmanlara muxtariyyətin verilməsini nəzərdə tutacaq.

Xatırladaq ki, Mindanao adasında yaşayan müsəlmanların silahlı qrupları ilə hökumət qoşunları arasında qarşıdurma ötən əsrin 70-ci illərindən davam edir. Müsəlmanlar müstəqillik uğrunda mübarizə aparırlar.

2014-cü ildə barışıq məqsədilə ciddi addımlar atılıb. Etirazçı müsəlmanların böyük qrupu ilə hökumət arasında aparılan danışıqlar zamanı siyasi muxtariyyətin yaradılması barədə çağırışlar səsləndirilib.

## ABŞ KONQRESİ "S-400"-LƏRƏ GÖRƏ "F-35" QIRICI TƏYYARƏLƏRİNİ TÜRKİYƏYƏ TƏDARÜKÜNÜ DONDURUB



ABŞ Konqresi Ankaranın Rusiya istehsalı olan "S-400" zenit-raket kompleksləri əldə etmək qərarına görə "F-35" beşinci nəsil qırıcı təyyarələrini Türkiyəyə tədarükünü dondurub.

Müvafiq düzəliş ABŞ-ın 2019-cu il üçün müdafiə büdcəsinin sonuncu variantına edilib. Dəyişiklik Konqresin hər iki palatasında təsdiqlənib.

Pentaqon tədarükün ləğvinin mümkün fəsadlarını təhlil etdikdən sonra "F-35"lərə dair yekun qərar veriləcək.

## YUNANISTANDA MEŞƏ YANĞINLARI NƏTİCƏSİNDƏ 91 NƏFƏR ÖLÜB



Yunanıstanda baş verən meşə yanğınları nəticəsində ümumilikdə 91 nəfər ölüb, 25 nəfər itkin düşüb. Bu barədə Yunanıstan hökumətinin nümayəndəsi bildirib.

Faciə ilə əlaqədar ölkədə 3 günlük matəm elan edilib. Paytaxt Afinanın da daxil olduğu Attika bölgəsində fövqəladə vəziyyət elan edilib.

Yunanıstanın mülki müdafiə naziri Nikos Toskas yanğının qəsdən törədilməsini istisna etməyib.

## SOCAR GÜRCÜSTANDA YENİ QAZ KƏMƏRİ ALIB

"SOCAR Georgia Gas" şirkəti Gürcüstanın bir sıra rayonlarında qaz kəmərlərini alıb. Gürcüstan hökumətinin qərarı ilə qaz kəmərləri şirkətə 21,3 milyon lari məbləğində satılıb.

Kaspi, Zuqdidi, Laqodexi, Axmeta, Qardabani, Zestafoni, Ozurgeti və Oni rayonlarında yerləşən qaz kəmərlərinin ümumi uzunluğu 594 min paqon-metr təşkil edir.

Sövdələşməyə əsasən, "SOCAR Georgia Gas" aldığı daşınmaz əmlakın dəyərini 48 ay müddətində tam ödəməlidir.

## YENİ DİPLOMATİK BÖHRAN



Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

Son zamanlar Ankara ilə Vaşinqton arasında yaşanan silsilə diplomatik böhrana bir yenisi də əlavə olundu. ABŞ prezidenti Trampın Türkiyəni açıq-aşkar sanksiyalarla hədələməsi budəfəki gərginliyin ciddiliyindən xəbər verir. Tramp öz mənfur niyyətini Türkiyənin əleyhinə casusluq etmək, habelə Fətullah Gülən və PKK terrorçuları ilə əlbir olmaqda ittiham edilərək 2016-cı ildə həbs edilən rahib Endryu Bransonun dərhal azadlığa buraxılma tələbi ilə arqumentləşdirir. Lakin məsələnin təfərrüatına yaxından nəzər salsaq iki ölkə arasında münasibətlərin tarıma çəkilməsinin əsl səbəblərinin nədən qaynaqlandığını görmüş olarıq. Hər dəfə olduğu kimi, indiki böhranın da "təşəbbüskarının" ABŞ-ın olması konkret faktlara söykənir.

Bir neçə gün öncə ABŞ Konqresinin beşinci nəsil hesab edilən "F-35" hərbi təyyarələrin Türkiyəyə satışına ən azı 2019-cu ilin sonunadək moratorium tətbiq etməsi iki ölkə arasında diplomatik böhranın qaynama nöqtəsi hesab edilməlidir. Ümumi dəyəri 880 milyon dollar olan müqavilənin şərtlərinə əsasən Türkiyə ABŞ-dan 100 ədəd "F-35" qırıcı təyyarəsi almalı idi. Halbuki cari ilin iyun ayında Vaşinqton 2 ədəd adıgedən təyyarəni Türkiyəyə təhvil vermiş və hətta türk pilotlar ABŞ-da "F-35"-in idarə edilməsi üzrə hərbi təlimlərə də başlamışdır.

Aydın məsələdir ki, ABŞ parlamentinin qərarı sırf siyasi xarakter daşıyır və bu kontekstdə Konqresə də diqtə edən Trampdır. Şübhəsiz ki, rahib Endryu Bransonun türk məhkəməsi tərəfindən tamamilə azadlığa buraxılmaması Konqresin qərarında kilid rolu oynamamışdır. Əgər bu belədirsə, onda ABŞ Türkiyənin hüquq və məhkəmə sisteminə hörmətsizlik nümayiş etdirmiş olur. Ağ Evin patronunu özündən çıxaran məqam Ankara ilə Moskva arasında müxtəlif, o cümlədən hərbi-ticari münasibətlərin inkişaf dinamikasıdır. Vaşinqtonu qəzəbləndirən məsələ Türkiyənin Rusiyadan "S-400" tipli zenit-raket komplekslərinin alınmasıdır. ABŞ-ın fikrincə NATO-da müttəfiq olan heç bir ölkə Rusiyadan silah ala bilməz. Lakin əvvələr Yunanıstanın Rusiyadan "S-300" zenit qurğularının almasını görməzdən gəlir. Axı Yunanıstan da NATO-ya üzv ölkədir. Bütün dünya ölkələri kimi öz milli təhlükəsizlik doktirinasını təkmilləşdirmək və hərbi arsenalını ən müasir silahlarla təchiz etmək Türkiyənin də suveren hüququdur. Odur ki, Ankara bunun hesabatını Vaşinqtona vermək üçün heç bir mükəlləfiyyət daşımır.

"F-35" hərbi təyyarələrinin Türkiyəyə satışının dondurulması, əslində ABŞ-ın özünün iqtisadi maraqlarına ziddir. Bu barədə Pentaqon rəhbəri Ceyms Mettis vurğulayır ki, qırıcı təyyarələrin satışına dair müqavilənin reallaşmasındakı gecikmələr ilk olaraq ABŞ şirkətlərini ciddi gəlirlər əldə etməsinə neqativ təsir göstərəcəkdir.

Türkiyə okeanın o tayından gələn təhdid və təzyiqlərə artıq öyrəşmişdir. Belə ki, prezident Ərdoğan da bundan sonra Türkiyə adına atacağı addımları yetərincə təftiş etməkdədir. Bəzi türkiyəli hərbi ekspertlər İncirlik hərbi bazasından istifadə etməsinə Ankaranın ABŞ-a qadağa qoymasını təklif edirlər. Lakin indiki vəziyyətdə Türkiyənin belə bir addım atacağı ehtimalını söyləmək olmaz. Vaşinqtonun təhdidlərinə adekvat reaksiya kimi daha modern "S-500" komplekslərinin müştərək istehsal edilməsi üçün Ərdoğanın Rusiyaya işbirliyi təklif etməsini daha rasional addım kimi dəyərləndirmək olar.

ABŞ və Türkiyə arasında diplomatik gərilimin çoxşaxəliyi yaxın gələcəkdə bu ölkələr arasında münasibətlərin düz müstəviyə çıxma ehtimalını arxa plana keçirir. İstər Fələstin, istərsə də Suriya və İraq məsələlərində Ankara və Vaşinqton arasındakı uçurum hər gün dərinləşməkdədir. Trampın fikrincə dünya ABŞ-ın yazdığı qaydalarla idarə olunmalıdır. ABŞ prezidenti bilməlidir ki, müasir Türkiyə "amerkansayağı oyun" oynamağı artıq çoxdan tərgidib.



## İSLAMDA DEİZMƏ YER YOXDUR

Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**Allah insanlığa bir çox peyğəmbər və 4 ilahi kitab göndərmişdir. Bu peyğəmbərlərin sonuncusu Həzrəti Məhəmməd (səllallahu əleyhi və səlləm), onun gətirdiyi İslam dini sonuncu din, bu dinin qayda-qanunlarını (nəinki bu dinin, hətta bütün insanlığın) tənzimləmək üçün də ilahi kitab olan Qurani-Kərim isə son ilahi kitabdır.**

İsə Məsihin qeybə çəkilməsindən sonra pozğunluğa uğrayan ilahi din artıq insanların arzu və istəklərinə görə uyğunlanmağa başlanmışdır. Bundan sonra son din olaraq İslam göndərilmişdir.

İslam dini Allahın tək yaradan olduğunu qəbul edən bir dindir. Bu dinin mənsublarına da müsəlman deyilir. Bu dinin gətirdiyi qayda-qanunları da Qurani-Kərimdən və Peyğəmbərinin yaşayışından öyrənmək mümkündür.

Müsəlmanların üzərinə bir neçə şey fərz (Allahın qəti əmri) olaraq qılınmışdır. İslam tarix boyu sadəcə bir inanc sistemi olmayıb, hətta insanların sosial həyatları ilə birlikdə siyasi həyatlarını da düzənə salan bir qanun sistemidir. Həzrət Peyğəmbər bir müsəlman, eyni zamanda bir dövlət başçısı idi. Ondan sonra gələn dörd böyük xəlifə də onun tərbiyəsindən çıxmış ölkə başçıları olmuşdur.

Gələk zamanımıza. Son dövrlərdə bəzi "İslam alimləri" qeyri-İslam ölkələrində və qeyri-müsəlmanlardan İslamı öyrənib gəlib öz bildikləri kimi fətvalar verməyə başladılar. Bu gün demək olar ki, dünyanın bir çox yerində yaşayan bir çox müsəlman sadəcə Allahın varlığına inandıqlarını etiraf edirlər. Onlar Peyğəmbəri belə qəbul etmirlər. Əslində belə insanlar Allaha da qarşı gəlmiş olurlar. Çünki Allah Qurani-Kərimdə Həşr surəsinin 7-ci ayəsində "...Peyğəmbər sizə nəyi əmr etdisə onu alın, nəyi də qadağan etdisə ondan çəkinin..." deyə buyurur. İşin maraqlı tərəfi odur ki, bu insanların bir də ilahiyyat üzrə elmi dərəcələri var. Ancaq bu inanc sistemi İslam yox Deizmdir.

Bəs nədir Deizm?

"Yaradanın varlığını və aləmin ilk səbəbi olduğunu qəbul etməklə birlikdə, ağıla dayanan bir təbii din anlayışı çərçivəsində peyğəmbərliyi, axirəti şübhə ilə qarşılayan və ya inkar edən fəlsəfi məktəbin adıdır".

Bu düşüncəyə sahib olanlara da DEİST deyilməkdədir.

Bundan yola çıxaraq indiki vaxtda cəmiyyətimizin, xüsusilə də gəncliyin təəssüf ki, təhlükəli istiqamətdə yol almağa başlaması narahatlıq verici ölçülərə gəlməkdədir. Təbii ki, bunun yanında İslamı anlamış dindar insanları tənzih edərək ayrı tutmamız lazımdır.

Peyğəmbər əfəndimizin tətbiq etmiş olduğu sünnəsini xəfifə alaraq fəlsəfi düşüncələrlə sorğulayan, dini öz maraqlarına uyğun gəldiyi kimi tətbiq edən, namazları seçən, məsələn, beş vaxt namazın fərz olduğu halda qılmayan və yalnız CÜMƏyə və bayrama bağlayan, qurbanı öz fəlsəfəsinə görə kəsən, zəkatı öz bildiyi kimi verən, orucu tutmayanların saylarının artması, həccin ərəblərə pul qazandırma fəlsəfəsi kimi faktlar söyləyənlər deist deyil bəs nədir? Qiymətli qardaşlarım, belə bir din yoxdur.

**İslam dini Allahın əmrini və Peyğəmbər əfəndimizin sünnəsini səmimi bir şəkildə tətbiqin adıdır. Müsəlman sözünün mənası səmimi olaraq təslim olan deməkdir. Yəni din təslimiyyətdir, bütün qaydaları əskiksiz olaraq tətbiq etməkdir. Allah-Təala bizə yaxşılıqları əmr edir, pisliklərdən nəhy edin deyə buyurmaqdadır. Bunun mənası isə dinimizi anlamaq məcburiyyətindəyik deməkdir. Anlamalıyıq ki, başqalarına da doğru düzgün anlada biləк. Onun üçün hər kəs bir digərini xəbərdar etmək məcburiyyətindədir. Bunun əksinə olaraq dini öz keyfimizə görə yaşamamız bizi uçuruma aparar, fəlakətə sürüyər. Bütün bunların nəticəsində səmimiyyətdən uzaq nə etdiyini bilməyən, Allah qorusun, DEİST bir cəmiyyət ortaya çıxar.**

## ეროვნული პრესის დღე



აზერბაიჯანის ბეჭდვითი საშუალებების ფუძემდებელი იყო ხასან ბეკ ზარდაბი. ხანგრძლივი ბრძოლის შედეგად, მეფის რუსეთის კოლონიალური სისტემის პირობებში, მან მაინც მიაღწია აზერბაიჯანულ ენაზე გაზეთ "ექინჯის" გამოშვების უფლებას. ამ გაზეთის გამოშვებამ სერიოზული რეზონანსი იქონია მთელს კავკასიაში. დასაწყისში გაზეთის რედაქცია შედგებოდა მხოლოდ ერთი ადამიანისგან. ზარდაბი იყო გაზეთის გამომცემელიც, რედაქტორიც, კორექტორიც და ამწყობიც. 1875-1877 წლებში გამოვიდა გაზეთის 56 ნომერი. საზოგადოებაში ყურადღების მისაქცევად, იგი იძულებული იყო გაზეთები უფასოდ დაერიგებინა.

გაზეთის გამოცემით ხასან ბეგი უპირველეს ყოვლისა ცდილობდა მიეღწია ძირითადი მიზნისათვის – ხალხის განათლების პროპაგანდისთვის. იგი გაზეთში აქვეყნებდა ინფორმაციას სოფლის ცხოვრებაზე, სოფლის მეურნეობაზე, მიწადმოქმედებაზე, საირიგაციო სამუშაოებზე, ეხმარებოდა გლეხებს სოფლის მეურნეობის საჭირბოროტო საკითხების გადაჭრაში. ძირითადად პრინციპს შეადგენდა ეროვნული ერთობის შექმნა. ამასთან დაკავშირებით, 1877-1878 წლებში რუსულ-თურქული ომის გამო გაზეთის მდგომარეობა ძალიან გართულდა. მეფის ცენზურამ აკრძალა გაზეთში პოლიტიკური ხასიათის საკითხების განხილვა. 1877 წელს გამოიცა გაზეთის ლიკვიდაციის ბრძანება.

დღეს აზერბაიჯანის რესპუბლიკაში ასობით პრესის ორგანო მოქმედებს. აზერბაიჯანის რესპუბლიკის პრეზიდენტის ბრძანებით "ექინჩის" გამოცემის დღე - 22 ივლისი პრესის და ჟურნალისტიკის ეროვნულ დღედ აღინიშნება.

## GÜRCÜSTAN PARLAMENTİ "YIĞIM PENSİYASI HAQDA" QANUN QƏBUL EDİB

***İşçilər əmək haqlarının 2 faizini pensiya fonduna ödəyəcəklər, onun üzərinə isə işlə təmin edən və dövlət də 2 faiz əlavə edəcək.***

Gürcüstan Parlamenti 79 "lehinə" səslə "Yığım pensiyası haqda" qanun layihəsini qəbul edib. Səsvermə iyulun 22-də baş tutub. Qanun 2019-cu ilin yanvarından qüvvəyə minəcək. Bunun üçün layihəni prezident imzalamalıdır.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Yekaterina Mikabadzenin sözlərinə görə, yığım pensiya sistemi işlə təmin olunmuş vətəndaşlara illər ərzində əməkhaqlarına tam proporsional əmanət toplamağa və yüksək əmsal nisbəti əldə etməyə imkan verəcək.

"Yığım pensiya sistemi məhz sosial tələblərə cavabdır və bu sistem çərçivəsində dövlət Gürcüstan əhalisinə əmanət toplamağa əhəmiyyətli dərəcədə kömək edəcək və sosial məsuliyyəti onlarla tam bölüşəcək. Biz ədalət və səmərəlilik baxımından problemlərin həlli üçün real əsas yaradırıq. İslahatın əsas məqsədi məhz budur", – deyə Yekaterina Mikabadze bəyan edib.

**Gürcüstan vətəndaşları özləri üçün necə pensiya toplaya biləcəklər?**

Gürcüstanın hər bir sakini üçün pensiya hesabı açılacaq və oraya aybaay pul köçürüləcək. Qanuna əsasən, işlə təmin olunanlar əməkhaqlarının 2 faizi həcmində büdcəyə vəsait köçürəcəklər, bundan başqa işlə təmin edən və dövlət də fonda 2 faizlik köçürmə edəcək. Özünüməşğulluqla qazanan insanlar gəlirlərindən 4 faiz ödəməli olacaqlar.

40 yaşından cavan işlə təmin olunmuş şəxslərin pensiya islahatlarında iştirakı mütləqdir. Daha yaşlı insanlar könüllü qərar qəbul edə biləcəklər.

Pensiya toplamış adam öldüyü halda onun maddi əmanəti birbaşa varislərinə qalacaq.

Yeni sistem insanlara pensiyaya çıxmaq vaxtını ertələməyə və daha uzun müddət əmanət toplamağa imkan verəcək. Amma insan pensiya yaşına çatdıqdan sonra dövlət və işlə təmin edən fonda onun üçün 2 faizi ödəməyi dayandırır. Bundan sonra vətəndaş yalnız öz 2 faizlik ödəmələri hesabına əmanətini çoxalda bilər.

**Pensiyaçılar gələcəkdə nə qədər pensiya alacaq?**

Qanun müəllifləri bildirirlər ki, əgər işlə təmin olunmuş şəxs 1000 larilik orta aylıq əməkhaqqı ilə 30 il mrüddətində pensiya toplayacaqsa, o zaman onun pensiyası 500 lari təşkil edəcək. Yeni pensiya sistemi bu gün ayda 180 lari təşkil edən köhnə sabit pensiyanın ləğvi demək deyil. Sabit pensiya bir növ pensiyanın əsas məbləğinin üzərinə əlavə ediləcək.

Pensiya fondunun hər bir iştirakçısının fərdi pensiya hesabı olacaq və o, elektron girişlə təmin ediləcək, yəni öz daxilolmalarını izləyə biləcək.

**Vətəndaşların yığımını kim idarə edəcək?**

Yığım pensiya sisteminin təşkili və idarə olunması üçün Müşahidəçilər Şurasının timsalında rəhbər orqanlı pensiya agentliyi yaradılacaq. İlk üç il müddətində pensiya agentliyi dövlət tərəfindən maliyyələşdiriləcək, daha sonra isə vətəndaşların ödəmələri hesabına mövcud ola biləcək.

Qanun layihəsini hazırlayanlar gözləyirlər ki, yeni sistemin işə düşəndən sonrakı ilk maliyyə ilində ödəmələrin ümumi həcmi 400 milyon lari təşkil edəcək.

# MÜƏLLİMLƏR İMTAHANININ NƏTİCƏLƏRİ NƏ ZAMAN MƏLUM OLACAQ

***2018-ci il müəllim kompetensiyasının təsdiqlənməsi imtahanları 23 iyul tarixində başa çatıb. Ümumi qeydiyyatdan keçmiş namizədlərdən imtahanda 25-30% iştirak etməyib. Bundan əlavə, köməkçi vasitələrdən istifadə və telefonların imtahana aparılması səbəbindən müəllimlərin imtahandan çıxarılma halları da qeydə alınıb. Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin direktor müavini İva Mindadze müsahibəsində bildirir ki, müəllimlərin və müəllim olmaq istəyənlərin imtahan nəticəsi avqust ayının ortalarında yayımlanacaq.***

**– Cənab İva, bu il müəllimlərin və müəllimlik istəyi olanların imtahanını necə qiymətləndirərdiniz, pozuntular var idimi və deyə bilərsinizmi neçə nəfər aplikant imtahana gəlməyib?**

– Təqribən 20 minə yaxın aplikant qeydiyyatdan keçib. Ancaq iştirak edənlərin göstəriciləri yüksək olmadı. Demək olar ki, 25-30% imtahana gəlməyib və buna görə çox üzülürük. Hər şey hazırdır – məkan, test, ancaq adam az gəlir. Boş masalara və oturacaqlara baxmaq heç də xoş deyil. Keçən il də eyni vəziyyət oldu. Doğrudur, daha çox müəllim qeydiyyatdan keçmişdi, ancaq çoxu imtahana gəlmədi.

**– Neçə müəllim və müəllimlik istəyi olan bu il imtahandan çıxarılıb?**

– Bir neçə hal oldu ki, köməkçi vasitələr və telefon gətirdikləri üçün müəllimlər imtahandan çıxarıldılar. Belə bir fakt regionda da baş verib.

**– Nəticələrin yoxlanılması prosesi hansı mərhələdədir?**

– Nəticələrin yoxlanılması imtahandan sonrakı günlərdə başladı. Bilirsiniz ki, müəllimlərin və müəllimlik istəyi olanların imtahanı artıq başa çatıb və düzəliş prosesi artıq gedir. Təxminən avqust ayının birinci hissəsinin sonuna qədər, avqustun ortalarında bu imtahanların nəticələri əlimizdə olacaq.

**– Düzəliş prosesində müəllimlərin hansısa fənn və ya hansısa növ test tapşırığının yerinə yetirilməsində çətinlik çəkdikləri oldumu?**

– Bilirsiniz ki, bağlı tapşırıqlar avtomatik düzəlir, açıq tapşırıqlar isə skan edilir və hər bir tapşırıq növü yoxlayan şəxsə gedir. Ümumi testi görə bilmirik. Bunu yalnız nəticələr məlum olanda biləcəyik.

**– Yəni indiki mərhələdə müəllimlərin ümumi bilik səviyyəsini qiymətləndirə bilmərik və yüksək bal yazılıb yazılmadığını da qeyd edə bilməzsiniz?**

– Xeyr, çünki əgər aplikant hansısa tapşırıqdan 2 bal toplayıbsa bilmirik müəllim ümumi hesabda və açıq tapşırıqdan nə qədər bal alıb. Ona görə də nəticələr məlum olmadan heç nə deyə bilmərik.

**– Aplikasiya dövrü nə zaman başlayacaq və apellyasiya üçün ərizələr nə zaman qəbul olunacaq?**



– Apellyasiya ilkin nəticələr yayımlandıqdan sonra elan olunacaq. Bundan sonra 5 iş günü ərzində ərizələri qəbul edəcəyik. Keçən illəri nəzərə alsaq apellyasiya ərizələrinin düzəldilməsi 3-4 gündən çox davam etmirdi, ancaq bu, yenə də apellyasiya ərizələrinin sayına da bağlıdır.

Apellyasiya müəllimlər və müəllimlik istəyi olanlar üçün pullu olacaq. Balları artdığı halda müraciət edənin məbləği geri qaytarılacaq, əgər ballar dəyişməz qalarsa həmin məbləğ qaytarılmayacaq. Apellyasiyanın dəyəri 50 laridir.

Gürcü dilindən tərcümə:
Aynurə ƏLİYEVA

## GÜRCÜSTAN OMBUDSMANI: "AZƏRBAYCANIN TƏQDİM ETDİYİ DƏRSLİKLƏR TƏHSİL SİSTEMİMİZİN STANDARTLARINA UYĞUN DEYİL"



"Azərbaycan və Ermənistan tərəfinin Gürcüstana təqdim etdiyi dərsliklər ölkənin təhsil sisteminin standartlarına uyğun deyil". Bu barədə Gürcüstan Ombudsmanının 2017-ci il üzrə insan haqları və azadlıqlarına dair hesabatında deyilir.

Sənəddə qeyd olunub ki, Ermənistan bu yaxınlarda 12 illik təhsil sisteminə keçib: "Azərbaycanda isə 11 illik təhsil sistemi davam edir. Bu o deməkdir ki, Azərbaycanda 12-ci sinif üçün nəzərdə tutulmuş dərsliklər yoxdur. Azərbaycandilli məktəblər üçün Azərbaycanın göndərdiyi dərsliklər məktəblərdə təhsil prosesinə mənfi təsir göstərir".

Ombudsman Gürcüstanın Təhsil və Elm Nazirliyinə Azərbaycan və erməni dilində dərsliklərin ölkədə çap olunması ilə bağlı tövsiyələr verib.

Qeyd edək ki, son illər Azərbaycan Gürcüstanın Azərbaycandilli məktəblərini dərsliklərlə təmin edir. Son 4 ildə Azərbaycanın Təhsil Nazirliyi Gürcüstanın Azərbaycandilli məktəbləri üçün ümumi sayı 73805 ədəd olan "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliyi və müəllimlər üçün metodik vəsaitlər təqdim edib.

## YENİ TƏDRİS İLİNDƏN MƏKTƏBLƏRDƏ HANSI YENİLİKLƏR PLANLAŞDIRILIR



Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Lia Qiqauri söhbəti zamanı yeni tədris ilindən məktəblərdə həyata keçiriləcək yeniliklərdən danışıb.

"2018-ci il ibtidai pillədə reformaların başlanmasının ilk ilidir. I-VI siniflər də daxil olmaqla yeni proqramlarımız və dərsliklərimiz olacaq. Bununla yanaşı təşkilati hissədə də dəyişikliklər var. 2-ci sinifdə dərs prosesinin vaxtı 5 dəqiqə azaldılıb. Məktəblərin şagirdə seçim üçün iki xarici dil təklif etmək öhdəliyi olacaq. Məktəblər səviyyələrə və siniflərə əsasən xarici dilin tədrisini təşkil etməlidirlər", - deyə Lia Qiqauri bildirib.

Nazir müavini müəllimlərin hazırlanması baxımından planlaşdırılan dəyişikliklər və yeniliklər haqqında da danışıb.

"Müəllimlərin hazırlanması proqramının hissəsində bir sıra yeniliklər var. Sxem istiqamətində də müəyyən dəyişikliklər hazırlanıb və qüvvəyə minir. Direktor, müəllim və mandaturlar üçün hazırlıq və peşəkar inkişaf, həmçinin zorakılığın idarəsi ilə bağlı kurslarımız var. Tezliklə müəllimlərin xüsusi hazırlıq proqramı başlayacaq, xüsusi müəllimlərdən modulu uğurla başa vuranlar status qazanacaq. Eləcə də inteqrasiya olmuş siniflərimiz artır və müxtəlif məktəblərdə sayı 12-yə qədərdi. İnteqrasiya olmuş siniflərlə bağlı tələb artır. Bu inkluziv təhsilin inkişafı baxımından vacib istiqamətlərdən biridir. Bütün siniflər üçün inkluziv təhsil resursları hazırlanır və indiyə kimi yalnız dərsliklərdən söhbət gedirdisə, indi müxtəlif xüsusi ehtiyacı olan şagirdlərə fərqləndirməmiz də olacaq", - bildirib təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Lia Qiqauri

## TƏHSİL NAZİRİNİN MÜAVİNLƏRİNİN KİMLİYİ MƏLUM OLUB

Təhsil, elm, mədəniyyət və idman nazirinin birinci müavini Mixeil Qiorqadze olacaq. Ketevan Natriaşvili vəzifəsini tərk edib, onun yerinə təhsil istiqamətində nazirin müavini Lia Qiqauri olacaq. Ketevan Natriaşvili isə təhsil naziri Mixeil Batiaşvilinin müşaviri vəzifəsini tutacaq.

Təhsil nazirinin ümumi təhsil istiqamətində yeni müavini Müəllimlər Evinin meneceri İrina Abuladze olacaq.

Teymuraz Murğulia və Aleksandre Tevzadze müavin vəzifəsində qalıb. Mixeil Batiaşvilinin mədəniyyət sahəsində daha bir müavini Levan Xarataşvili, idman istiqamətində müavini isə Şalva Qoqoladze olacaq.

## MƏKTƏBLƏRDƏ DİN TARİXİ TƏDRİS OLUNACAQ

2018-2019-cu tədris ilindən məktəblərdə din tarixinin tədrisi guman edilir.

"Dinin tədrisi ilə bağlı nazirliyin bazasında yaradılmış şura üzvləri ilə birgə davamlı şəkildə müzakirələr aparılır. Düşünürəm ki, sentyabra qədər yeni dərsliyin işlənilməsi real deyil. Yaqin ki, gələn tədris ili üçün gürcü provoslav kilsəsinin və başqa konfessiya rəhbərlərinin qoşulması ilə dərslik tərtib olunacaq. Dərslik indoktrinasiya istiqamətli olmayacaq, şagirdlərə bilik əldə etmək imkanı verəcək. Bu, tarixin tədrisi, teologiyanın əsas prinsipləri olacaq ki, ətrafımızda baş verən səhvlər olmasın. Dinin adı ilə yaranmış konfliktlər qəbuledilməzdir və vəziyyətin dəyərləndirilməsi sağlam şəkildə olmalıdır. Tez-tez din tarixini kim tədris edəcək deyə soruşurlar. Düşünürəm ki, bu fənnin tədrisini humanitar elmlər pedaqoqu üzərinə götürməlidir. Onlar yeni tərtib olunan dərsliklə tanış olmaq məqsədi ilə tədris kursu keçəcəklər", - deyə parlamentin təhsil və elm komitəsinin sədri Mariam Caşi bildirib.



# CƏNUBİ QAFQAZDAKI ETNİK MÜNAQİŞƏLƏRİN REGİON ÜÇÜN YARATDIĞI PROBLEMLƏR



"Soyuq müharibə"nin başa çatması ilə Cənubi Qafqaz bir anda regional və qlobal güc mübarizələrinin əsas sahələrindən birinə çevrilmişdir. Müstəqilliyin əslində nə olduğunu tam olaraq anlamağa imkan tapmadan onu qorumağa çalışan gənc dövlətlər müxtəlif ciddi problemlərlə qarşı-qarşıya qalmışdılar. Bu problemlər ilk növbədə Gürcüstanın və Azərbaycanın həm gərgin daxili siyasi-hərbi proseslər yaşaması, həm də ərazi bütövlüyü problemi ilə qarşı-qarşıya qalması idi. Bilindiyi kimi Gürcüstanda vətəndaş mühribəsi baş vermişdi, Azərbaycan isə çox ciddi vətəndaş müharibəsi təhlükəsi yaşamışdı. Ərazi bütövlüyü təhlükəsinə gəldikdə isə Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələri, Azərbaycanın isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf rayonları işğal edilmişdi.

Beləliklə Cənubi Qafqaz baxımından 1990-cı illərin əvvəlləri müstəqilliyi və daxili sabitliyi qorumaq, etnik münaqişələr, enerji müqavilələri, "Rusiyaya qarşı vahid Qafqaz, yoxsa Qafqazdaxili müharibə" sualına cavab axtarışı, Qərb-Rusiya rəqabəti və s. ilə yadda qalmışdır. Bu prosesdə Gürcüstan və Azərbaycan bir yandan vətəndaş müharibəsi təhlükəsini ortadan qaldırmağa çalışmış, bir yandan ərazi bütövlüyünü bərpa etməyə çalışmış, amma bununla kifayətlənməmişdir. Gürcüstan və Azərbaycan ciddi problemlər yaşasalar da Cənubi Qafqazın əməkdaşlıq məkanı olması üçün töhfələr verməyə çalışmışdır.

Yaşadıqları münaqişələr bu iki ölkəni ciddi sıxıntılarla qarşı-qarşıya qoysa da Gürcüstan və Azərbaycan qlobal əhəmiyyətli regional layihələr reallaşdırmağa çalışmışdır. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri, Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi bunlar arasındadır. Amma bu layihələri reallaşdırmaq elə də asan olmamışdır. Çünkü bu layihələr hələ ideya mərhələsindəykən Gürcüstan və Azərbaycan müharibə ilə qarşı-qarşıya idi. Abxaziya və Cənubi Osetiya münaqişələri Gürcüstan üçün, Qarabağ problemi isə Azərbaycan və geniş mənada bütün bölgə üçün müxtəlif təhlükəsizlik problemləri yaradır, regional, hətta qlobal sülhü və təhlükəsizliyi təhdid edirdi. Abxaziya və Cənubi Osetiya münaqişələri Gürcüstanın, Qarabağ problemi isə Azərbaycanın müstəqilliyi və inkişafı baxımından da risklərə, problemlərə, maneələrə səbəb olurdu. Ümumilikdə Cənubi Qafqaz regionu da münaqişələrin həll olunmamasının mənfi təsirlərini daim hiss etmişdir və bu gün də hiss edir.

Cənubi Qafqazda dövlətlərin ərazi bütövlüyünə qarşı yönəlmiş addımlar, separatizmə dəstək, işğalçılıq siyasəti Gürcüstan və Azərbaycan tərəfindən haqlı olaraq rədd edilir. Abxaziya və Cənubi Osetiya münaqişələrinin Gürcüstan üçün, Qarabağ probleminin isə Azərbaycan üçün yaratdığı nəticələr arasında xüsusilə insan itkilərini, hər iki tərəfdən yaralananları, müharibənin tərəflərə və ümumi olaraq bölgəyə verdiyi zərəri vurğulamaq mümkündür. Amma konkret rəqəmləri, məsələn, Abxaziya münaqişəsinin, 2008-ci ilin avqust müharibəsinin, Ermənistanın Azərbaycana qarşı hücumlarının və Azərbaycan ərazilərini işğal etməsinin nəticələri ilə bağlı tam dəqiq məlumatların ortaya qoyulması çətindir. Çünki Gürcüstanın və Azərbaycanın nəzarətində olmayan ərazilərdə işğal hal-hazırda da davam edir. Rusiya və Ermənistan işğal altındakı vəziyyətin qiymətləndirilməsi üçün BMT və ATƏT-in nümayəndələri də daxil olmaqla beynəlxalq təşkilatlara imkan yaratmır.

Sadəcə olaraq ümumi bəzi faktlar əsasında müəyyən fikirlər yürütmək mümkün olur. Məsələn, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı prosesi zamanı Azərbaycan tərəfi təxminən 20 min şəhid vermiş, 50 mindən çox insan yaralanmışdır. 51-i uşaq (17-si kiçik yaşlı qız) olmaqla 5 minə yaxın Azərbaycan vətəndaşı Ermənistan tərəfindən əsir alınmış və onların böyük əksəriyyətindən hələ də xəbər alına bilmir. Əsirlərdən 86-sı qadın olmaqla 451-in Ermənistan tərəfindən qətlə yetirildiyi (bəziləri orqan qaçaqmalçılığı məqsədiylə) təsbit edilmişdir. 1 milyona yaxın Azərbaycanlı qaçqın vəziyyətinə düşmüşdür. İşğal zamanı və sonrakı mərhələdə 900-dən çox yaşayış məntəqəsi dağıdılmış, 4 min 366 məktəb, xəstəxana, səhiyyə ocağı, mədəniyyət mərkəzi, abidə, teatr, kinoteatr və oxşar müəssisələr dağıdılmış və yandırılmışdır. 22 muzey və 4 rəsm qalereyası, tarixi əhəmiyyəti olan 9 saray, nadir tarixi əhəmiyyətli 40 min muzey eksponatı, 44 məbəd və 9 məscid dağıdılmış, talan edilmiş və yandırılmışdır. Bundan əlavə, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir.

Mütləq vurğulamaq lazımdır ki, Cənubi Qafqazdakı işğalçılıq siyasətindən sadəcə gürcülər və azərbaycanlılar zərər görməyib. Separatizm və işğalçılıq siyasəti sadə abxazların, osetinlərin, ermənilərin özlərinə də zərər verib. Onların bu gün də gündəlik həyatları normal deyil. Eləcə də Cənubi Qafqazdakı münaqişələr Qafqaz regionunda və bölgə üzərindən həyata keçirilən əhəmiyyətli layihələrin marşrutlarına təsir etmiş və təsir etməkdə davam edir. 2008-ci ilin avqust müharibəsinin də göstərdiyi kimi regiondakı münaqişələrin həll olunmadan qalması daim yeni münaqişənin başlama ehtimalını da açıq saxlayır. Bu risk də öz növbəsində regiondaxili əməkdaşlıq imkanını məhdudlaşdırır, yeni layihələrə mənfi təsir edir, həmçinin tamamlanmış və işlək vəziyyətdə olan layihələr üçün də risk amili təşkil edir.

Halbuki Cənubi Qafqazın təbii sərvətləri, geosiyasi mövqeyi və s. amillər imkan verir ki, region sülh və əməkdaşlıq regionu kimi inkişaf etsin, dövlətlər həm öz aralarında, həm də qonşuları ilə mehriban münasibətlər quraraq qlobal sülhə və əməkdaşlığa da töhfə versinlər. Amma bunun üçün regiondakı münaqişələrin beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq dövlətlərin ərazi bütövlüyü çərçivəsində həlli vacibdir.

***Araz Aslanlı, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi***

## YANVAR-İYUN AYLARINDA CƏRİMƏ VƏ CƏZALARDAN DÖVLƏT BÜDCƏSİNƏ 34,8 MİLYON LARİDƏN ÇOX MƏBLƏĞ DAXİL OLUB



2018-ci ilin 6 ayı ərzində yalnız cərimələrdən və cəzalardan dövlət büdcəsinə 34 817 800 lari məbləğ daxil olub.

Bu, büdcənin 6 aylıq tamamlanma planı ilə müqayisədə 8 milyon laridən çoxdur. Nəticədə büdcə qədərindən artıq olaraq 131,9%-lə tamamlanıb.

Yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirləri ümumilikdə 5,646,659.1 min lari təşkil edib. Bu isə 2018-c ilin 6 ayı müddətinin göstəricilərinin 102,8%-dir. Gəlirlərə gəldikdə isə, 6 ay ərzində 5,019,831.5 min lari təşkil edib. Bu, ölkənin əsas maliyyə sənədinin planına əsasən 250 milyon lari çoxdur. Bu halda büdcə 105,2%-lə tamamlanıb.

Dövlət xəzinəsinin göstəricilərinə əsasən, gəlir vergisi olaraq büdcəyə 397,406.2 min lari, əlavə dəyər vergisi olaraq 2,152,067.0 min lari, aksiz vergisi olaraq isə 654,153.1 min lari daxil olub.

## GÜRCÜSTANDA AYDA 500 LARİYƏ QƏDƏR ƏMƏK HAQQI ALANLARIN SAYI 286 MİNDƏN ÇOXDUR – İŞLƏ TƏMİN OLUNANLARIN 0,4%-NİN ƏMƏK HAQQI İSƏ 16 MİN LARİDƏN ÇOXDUR




Gürcüstanda 286,859 nəfər ayda 500 lariyə qədər əmək haqqı alır. Gəlirlər Xidmətinin göstəricilərinə əsasən, bu, işlə təmin olunanların 34,7%-dir. 239,210 nəfərin, yəni 28,9% 500-dən 1000 lariyə qədər maaş alır. 15,5%, yəni 127,708 nəfərin aylıq maaşı 1000-1500 lariyə qədər dəyişir. 60,546 nəfərin gəliri isə 1500-2000 lari çərçivəsindədir.

Rəsmi göstəricilərə görə, Gürcüstanda 32,765 nəfər 2000 laridən 2500 lariyə qədər; 19,219 nəfər 2500-dən 3000 lariyə qədər; 13,194 nəfər 3000-3500 lariyə qədər; 9,807 nəfər isə 3500-4000 lariyə qədər gəlir əldə edir.

Qeyd edək ki, Gürcüstanda 3,681 nəfərin, yəni işlə təmin olunanların 0,4%-nin 16 min laridən çox aylıq gəliri var. 2,132 nəfər 12 mindən 16 min lariyə qədər maaş alır. 5,530 nəfər 8000-dən 12 min lariyə qədər maaş alır. 25,753 nəfərin isə 4000-dən 8000 lariyə qədər gəliri var.

## ACARISTAN MUXTAR RESPUBLİKASININ YENİ HÖKUMƏT BAŞÇISI TƏSDİQ OLUNUB



Tornike Rijvadze Acarıstan Muxtar Respublikasının (MR) hökumət başçısı vəzifəsinə təsdiq olunub. MR-in Ali Məclisi iyulun 21-i keçirilən iclasda Tornike Rijvadze və yeni hökumətə səs çoxluğu ilə etimad göstərib.

Qeyd edək ki, T. Rijvadze hakim "Gürcü Arzusu" Partiyasının Acarıstanın hökumət başçısı vəzifəsinə namizədi olub. O, "Gürcüstan Energetikasının İnkişafı Fondu"nun direktoru idi. Bu vəzifəyə qədər isə Gürcüstanın energetika nazirinin müavini vəzifəsində çalışıb.

Acarıstan MR-in keçmiş hökumət başçısı Zurab Pataradze iyulun 4-də istefa verib.

## 2018-Cİ İLDƏ KVEMO KARTLİDƏ HANSI LAYİHƏLƏR HƏYATA KEÇİRİLƏCƏK

Gürcüstan dövlət büdcəsi ilə nəzərdə tutulmuş regionlarda həyata keçiriləcək, fonddan maliyyələşdiriləcək layihələr haqqında müzakirə şurasının iclasında görüş keçirilib.

2018-ci ildə Dmanisi, Bolnisi və Marneulidə yol infrastrukturuna bir neçə milyon lari xərclənəcək. Konkret olaraq Dmanisidə 10-a yaxın infrastruktur layihəsi həyata keçiriləcək. Bolnisinin, Dzveli Qveşi kəndində daxili yolların bərpa işləri də həyata keçiriləcək. Regiona fonddan layihənin həyata keçirilməsi üçün 250 min lari ayrılıb. Yerli büdcədən isə layihəyə 300 min lari verilib. Bunun üçün xüsusi işçi qrupu yaradılıb və qrup 2019-2021-ci illərin fəaliyyət planı üzərində çalışacaq. İşçi qrupuna Kvemo Kartli qubernatorunun müavini rəhbərlik edəcək. İşçi qrupunda həmçinin Kvemo Kartli bələdiyyələrindən üç nümayəndə üzv olacaq.

## KVEMO KARTLİ BÖLGƏSİNİN QUBERNATORU İSTEFAYA GÖNDƏRİLİB



Gürcüstanın baş naziri Mamuka Baxtadze bir neçə bölgənin rəhbərlərini vəzifələrindən azad edib. Bu barədə baş nazir keçirdiyi brifinqdə bəyanat verib.

Qərara əsasən, Gürcüstanın beş bölgəsinin – Şida Kartli, Mtsxeta-Mtianeti, Sameqrelo-Zemo Svaneti, Samtsxe-Cavaxeti qubernatorları istefaya göndərilib. Onların arasında Kvemo Kartli bölgəsinin qubernatoru Qriqol Nemsadze də var.

Mamuka Baxtadze qeyd edib ki, hökumət administrasiyasında bölgələrin idarə olunması bölməsinə Sozar Subari rəhbərlik edəcək. Baş nazir bölgələrin idarə olunmasında yeni yanaşmanın tətbiq olunacağını da əlavə edib.

## MAİA TSKİTİŞVİLİ: SU TƏCHİZATI SAHƏSİNİN DAVAMLI İNKİŞAFI ÜÇÜN GÜCLƏRİMİZİ BİRLƏŞDİRMƏLİYİK

Gürcüstanın regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili GWP (Georgian Water And Power) tərəfindən təşkil olunmuş sayca ikinci beynəlxaq konfransda iştirak edib. Konfransın əsas mövzusu ölkənin su təchizatı sisteminin inkişafı olub.



"GWP-nin təşəbbüsünü alqışlayıram. Bu sahənin davamlı inkişafı ətrafında gücümüzü birləşdirməliyik. Qeyd olunan sahədə ən çox çatışmamazlıq da elə budur. Gürcüstanın regionlarında təəssüf ki, 630 min adamdan çox sakinimiz mərkəzi su təchizatı və 24 saatlıq su təchizatından kənar qalıb. Dövlət və yerli özünüidarəetmə tərəfindən böyük investisiyalar qoyulur. 2013-2017-ci illərdə beynəlxalq maliyyə institutlarının köməyi ilə şəbəkələrin inkişafı üçün 200 milyon lariyə qədər vəsait xərclənib. Cari ildə görülən işlər üçün 230 milyon lariyə qədər vəsait ayrılıb. Sonradan 2 il ərzində isə bu məbləğ 600 milyon lariyə qədər artacaq. Bu böyük yatırımdır və maksimum effekt əldə etməyimiz vacibdir", – deyə Maia Tskitişvili bildirib.

Onun sözlərinə görə, 2020-ci il də daxil olmaqla müxtəlif regionlarda 430 min yeni abonent içməli su təchizatı şəbəkəsinə qoşulacaq.

## RUSTAVİDƏ YENİ REGIONAL TƏCİLİ TİBBİ YARDIM MƏRKƏZİ TİKİLƏCƏK



Rustavi şəhərində yeni regional təcili tibbi yardım mərkəz inşa ediləcək. Mərkəzin binası Lomouri küçəsində yerləşəcək. Bir mərtəbədən ibarət olacaq mərkəz yeddi briqada üçün nəzərdə tutulacaq. Bu haqda Rustavi sakrebulosunun iclasında məlumat verilib.

Dəyəri 400 min lari olan layihənin böyük hissəsi mərkəzi büdcədən maliyyələşəcək. Layihə prosedurlar başa çatdıqdan sonra hökumət iclasına çıxarılacaq, təsdiqləndikdən sonra isə artıq işlərlə bağlı tender elan olunacaq.

## TORNİKE RİJVADZE: BATUMİDƏ MƏSCİD GÜRCÜSTANIN MALİYYƏSİ İLƏ TİKİLMƏLİDİR

"Məscidlə bağlı yaxın gələcəkdə qərar qəbul olunacaq. Bizim komandanın və hakimiyyətin prinsipial mövqeyi belədir ki, qeyd olunan məscid Gürcüstanın maliyyəsi ilə tikilməlidir və biz bu məqsədlə bütün resurs və gücümüzü sərf edəcəyik", - deyə Acarıstan hökumətinin rəhbəri Tornike Rijvadze bildirib.

Ali şuranın növbədənkənar sessiyasında məscidin tikilməsi ilə bağlı Rijvadzeyə "Vahid Milli Hərəkat"ın üzvü Asmat Diasamidze sual verib.

"Acarıstan multikultural və multi-dini regiondur. Burada ibadət hüququ və azadlığı təmin edilməlidir. İctimai konsensus əsasında yaxın gələcəkdə qərar verəcəyik. Məscidin yeri, arxitekturası haqqında da məsələ konsensus əsasında dəqiqləşəcək", - T. Rijvadze qeyd edib.

Onun sözlərinə görə, məscidin tikintisi büdcədən və mesenatların köməyi ilə mümkün olacaq.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN KOSALI KƏNDİNDƏ UŞAQ BAĞÇASININ BƏRPA İŞƏRİNƏ BAŞLANILIB

Qardabani bələdiyyəsinin Kosalı kəndində uşaq bağçasının bərpa işlərinə başlanılıb. Təmir işləri yerli büdcədən həyata keçirilir. İşləri tenderdə qalib gələn MMC "Dioknisi" şirkəti yerinə yetirir. Layihə üçün 20483 lari nəzərdə tutulub. Təmir işləri sentyabrın 15-nə kimi başa çatacaq.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN KƏNDLƏRİNDƏ YOL İNFRASTRUKTURUNUN QURULMASINA BAŞLANILIB

Qardabani bələdiyyəsinin Ağtəhlə və Qaratəhlə kəndlərində yol infrastrukturunun qurulmasına başlanılıb. Layihə yerli büdcədən maliyyələşib və ümumi dəyəri 383 680 larini təşkil edir. İşləri tenderdə qalib gələn MMC "Arsakidze 2000"şirkəti həyata keçirir.

## MARNEULİDƏ YENİ İÇMƏLİ SU NASOSU STANSİYASININ AÇILIŞI OLUB



Marneuli bələdiyyəsinin İmir kəndində yeni içməli su quyusu və nasos stansiyasının açılışı olub. Stansiya 17 kəndi içməli su ilə təmin edəcək. İçməli sudan 2533 abonent (8612 nəfər) istifadə edir.

Hazır olan nasosun necə çalışmasını Kvemo Kartli bölgəsinin sabiq qubernatoru Qriqol Nemsadze, majoritar deputat Tamaz Naveriani, Marneuli merinin səlahiyyətlərini icra edən Zaur Tabatadze, sakrebulonun sədri Amiran Qiorqadze və digər rəhbər şəxslər yoxladılar.

Qeyd edək ki, layihə yerli büdcə və bölgədə həyata keçiriləsi layihələr fondu tərəfindən maliyyələşdirilib. Onun müqavilə dəyəri 506 949 larini təşkil edir.

## MARNEULİ BƏLƏDİYYƏSİNİN SAİMERLO KƏNDİNDƏ UŞAQ BAĞÇASININ TİKİNTİ İŞLƏRİ DAVAM EDİR

Marneuli bələdiyyəsinin Saimerlo kəndində uşaq bağçasının tikinti işləri davam edir. Bağça 120 uşaq üçün nəzərdə tutulub.

Binada qruplar üçün nəzərdə tutulmuş otaqlarla yanaşı idman və incəsənət tədbirləri üçün zal da olacaq. Uşaq bağçasının ətrafında kənar infrastruktur qurularaq qaydaya salınacaq. Binada fiziki qüsurlu uşaqlar üçün də şərait yaradılacaq.

Layihə yerli büdcənin maliyyəsi ilə həyata keçirilir və müqavilə dəyəri 587000 larini təşkil edir.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 İYUL 2018-ci İL
№011 (70)

## GÜRCÜSTAN YAZIÇILAR BİRLİYİ MİRZƏ FƏTƏLİ AXUNDZADƏ ADINA MÜKAFAT TƏSİS EDİB



Gürcüstan Yazıçılar Birliyi Azərbaycan və Gürcüstan arasında ədəbi-mədəni əlaqələrin inkişafında xüsusi xidmətləri olan yazıçı və şairlər üçün iki mükafat təsis edib. Gürcüstan Yazıçılar Birliyinin sədri Bağatur Arabulinin verdiyi məlumata görə, birinci mükafat Azərbaycan dramaturgiyasının banisi, yaradıcılığının böyük bir hissəsi Tbilisi ilə bağlı olan Mirzə Fətəli Axundzadənin adınadır. Bu mükafat gürcü şair və yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edən, eləcə də gürcü dilində yazan azərbaycanlı yazıçı və şairlərə təqdim olunacaq.

Böyük gürcü ədibi Akaki Sereteli adına mükafat isə Azərbaycan yazıçılarının əsərlərini gürcü dilinə tərcümə edəcək gürcü şair və yazıçılara veriləcək.

"Bu gün Azərbaycan dilində yazan çoxlu gürcü şairlər var. Onlar həm də Azərbaycan şair və yazıçılarının əsərlərini gürcü dilinə tərcümə edirlər. Eləcə də Azərbaycanda gürcü ədəbiyyatını sevən, onu başqa dillərə tərcümə edən ziyalılar çoxdur. İki dost və qardaş ölkənin mədəniyyətinin, mədəni əlaqələrimizin inkişafında rolu olan bu cür insanların əməyinə biganə qalmaq olmaz. Məqsədimiz həmin şair və yazıçılarımızın əməyini layiqincə qiymətləndirməkdir", - deyə B. Arabuli bildirib. O, həmçinin qeyd edib ki, şair və yazıçıların hər iki dilə tərcümə etdikləri əsərlər rəhbərlik etdiyi qurumun mətbu orqanlarında, həmçinin birliyin Azərbaycan bölməsinin "Körük" və "Şəfəq-Sxivi" jurnallarında dərc olunacaq.

## TBİLİSİDƏ AZƏRBAYCAN VƏ GÜRCÜ DİLLƏRİNDƏ NƏŞR EDİLƏN "KÖRÜK" VƏ "ŞƏFƏQ-SXİVİ" JURNALLARININ TƏQDİMATI OLUB



Azərbaycan və gürcü dillərində nəşr edilən "Şəfəq-Sxivi" və "Körük" jurnallarının təqdimat mərasimi keçirilib.

Gürcüstan Yazıçılar Birliyində (GYB) keçirilən tədbirdə Azərbaycan və Türkiyədən yazıçılar, ictimaiyyət nümayəndələri, Kvemo Kartli bölgəsinin qubernatorunun müavini Zaur Dərğallı və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbirdə Gürcüstan Yazıçılar Birliyinin sədri Bağatur Arabuli Azərbaycan və Gürcüstan arasında dostluq əlaqələrindən danışıb, Tbilisidə Azərbaycan dilində bu cür jurnalların nəşrini mühüm hadisə adlandırıb. O, bildirib ki, GYB-də Azərbaycan bölməsinin yaradılması, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin direktoru, professor, yazıçı Afaq Məsudun iştirakı ilə Tbilisidə "Müasir Azərbaycan nəsri antologiyası"nın təqdimatının keçirilməsi, şair və yazıçılarımızın əsərlərinin Azərbaycan və gürcü dillərinə tərcümə olunması ölkələrimiz arasında mədəni əlaqələrin yüksək səviyyəsindən xəbər verir. Bu münasibətlərin daha da genişləndirilməsi, iki ölkənin gənc şair və yazıçıları arasında əlaqələrin inkişaf etdirilməsi üçün layihələr hazırlanır.

Bağatur Arabulinin sözlərinə görə, "Şəfəq-Sxivi" jurnalının ilk nömrəsində Azərbaycan yazıçıları ilə yanaşı, gürcü klassiklərindən Vaja Pşaveli, poeziya incilərindən Qalaktion Tabidze, tənqidçilərdən Zaal Borkoveli və başqalarının əsərlərinin Azərbaycan dilinə tərcümə olunması gürcü ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib. Bu, həm də Azərbaycan-Gürcüstan dostluğuna bariz nümunədir.

Gürcüstan Yazıçılar Birliyinin Azərbaycan bölməsinin rəhbəri, yazıçı-publisist Allahverdi Təhləli jurnalın ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlıq edib. O, Azərbaycan və gürcü xalqlarının oxşar taleləri, ədəbi mühiti, mədəni əlaqələrimizin inkişaf perspektivləri barədə məlumat verib.

Kvemo Kartli bölgəsinin qubernatorunun müavini Zaur Dərğallı Azərbaycanda gürcü ədəbiyyatının, eləcə də Gürcüstanda Azərbaycan mədəniyyətinin eyni dərəcədə sevildiyini bildirib. Gənclərin ədəbiyyata, şeirə marağının artırılması istiqamətində layihələr hazırlanmasının vacibliyini vurğulayıb.

Digər çıxış edənlər Azərbaycan-Gürcüstan mədəni əlaqələrindən, Tbilisidə yaşayıb-yaratmış Mirzə Şəfi Vazeh, M.F.Axundzadə, C.Məmmədquluzadə, eləcə də Gürcüstanda anadan olmuş Nəriman Nərimanov, Rəşid Behbudov, Bülbül və digər ictimai-siyasi və mədəniyyət xadimlərinin mədəni əlaqələrimizin inkişafındakı xidmətlərindən danışıblar.

## BATUMİDƏ KRİPTOVALYUTA İLƏ MƏNZİL ALINIB



Batumi şəhərində yeni tikilmiş binada virtual pulla (bitkoin) mənzil alınıb. Mənzili alan şəxs xarici ölkə vətəndaşıdır.

Mənzil satışını həyata keçirmiş şirkətdən bildirilib ki, yaşayış sahəsinin sahibi və alıcı daşınmaz əmlakın qiymətinin bitkoinlə ödənilməsinə dair razılığa gəlib. Mənzilin qiyməti açıqlanmır.

Qeyd edək ki, Gürcüstanda kriptovalyuta ilə alış-veriş geniş yayılmayıb. 2017-ci ildə Tbilisidə "Mercedes" markalı avtomobil 2 bitkoinə satılıb. Tbilisidə bir neçə yerdə kriptovalyuta bankomatları quraşdırılıb.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 24,5% ARTIB



Bu ilin yanvar-iyun aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi 5 milyard 985,9 milyon dollar həcmində olub. Gürcüstanın Milli Statistika İdarəsinin ilkin hesabatına əsasən, illik müqayisədə xarici ticarət dövriyyəsinin həcmində 24,5% artım qeydə alınıb.

Hesabat dövründə Gürcüstanın ixracı 28,8% artaraq 1 milyard 593,6 milyon dollar, idxalı isə 23% artaraq 4 milyard 392,3 milyon dollar təşkil edib.

Ticarət dövriyyəsinin kəsri isə 2 milyard 798,7 milyon dollar olub.

## BU İLİN İLK YARISINDA GÜRCÜSTAN TURİZMDƏN 1 MİLYARD 361 MİLYON DOLLAR GƏLİR ƏLDƏ EDİB



Gürcüstanın Milli Bankının hesabatına əsasən, bu ilin yanvar-iyun aylarında Gürcüstan xarici turizmdən 1 milyard 361 milyon dollar məbləğində gəlir əldə edib.

Hesabat dövründə ən çox gəlir 325 milyon dollar olmaqla iyun, ən az gəlir isə 157 milyon dollar olmaqla yanvar ayının payına düşüb.

Qeyd edək ki, cari ilin ilk yarım ilində Gürcüstana 3 561 961 turist səfər edib. Onların 600 385 nəfərini Azərbaycandan səfər edənlər təşkil edib.

## BİR NEÇƏ MİN NƏFƏRİN KREDİT FAİZİ AZALACAQ

Gürcüstanda yenidən maliyyələşdirmə qrafikinə bağlanmış bütün kreditlər 25 baza vahidi qədər azalıb və 7 faizə bərabərdir. Bu o deməkdir ki, bir neçə min adamın kredit faizi azalacaq. Bu qərarı Gürcüstan Milli Bankının siyasi komitəsi qəbul edib.

Milli Bankda yenidən maliyyələşdirmənin azaldılması qərarını inflyasiya göstəricilərinin azalmasına görə qəbul ediblər.

"2018-ci ilin başlanğıcında inflyasiya göstəricisi azalıb və proqnozlara uyğun olaraq ilin birinci hissəsində məqsədli səviyyə (3%) çərçivəsində saxlanılır. İyun ayında illik inflyasiya 2,2 faiz təşkil edib. Bu məqsədli göstəriciyə yaxınlaşır", - Milli Bank tərəfindən yayımlanan bəyanatda qeyd olunur.

Gürcüstanda yenidən maliyyələşdirmə qrafiki 2017-ci ilin 13 dekabrında 7 faizdən 7,25 faizə qədər artıb.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər Musaoğlu
**Yayım Direktoru:** Hacı Bəkiroğlu
**Qrafik dizayn:** Elsevər Əhmədov

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 555 96 18 68*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.